# Psixoloqun yeniyetmələrlə apardığı psixoloji işin xüsusiyyətləri

**Nəzakət Şükür qızı Həsənli**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** Nazihesenli1997@gmail.com

**Rəyçilər:** psixol.ü.e.d., prof. R.İ. Əliyev,
psixol.ü.f.d.,dos. N.T. Rzayeva

**Açar sözlər:** psixologiya, yeniyetmə, yaş, ailə, alkoqolizm, qrup, sosial, uşaq
**Ключевые слова:** психология, подросток, возраст, семья, алкоголизм, группа, социальная, ребенок
**Key words:** psychology, teen, age, family, alcoholism, group, social, child

Yeniyetmələrdə davranış qüsurlarının, yaş böhranların meydana gəlməsində, ali sinir sistemi tipinin, ailədaxili münasibətlərin, onların daxil olduqları sosial qrupların güclü təsiri vardır. Bu cəhətdən tərbiyə işində təsir göstərən amillər kimi əlverişsiz həyat şəraiti, ailə tərbiyəsi və yeniyetmə ilə ünsiyyət üslubunun xarakteri nəzərə alınmalıdır. Ailədə ata və ana, valideynlərlə uşaqlar arasında qeyri-normal münasibətlər olduqda, ailənin hər bir fərdi öz mənafeyi naminə yaşadıqda, uşaq və yeniyetmələrin problemlərinə etinasız münasibət bəslənildikdə, diqqət və qayğıdan kənarda saxladıqda yeniyetmə tədricən mənəvi baxımdan öz valideynlərindən uzaqlaşır, doğmalıq hissləri zəifləməyə başlayır. Belə münasibətlər mühitində yetişən yeniyetmə tədricən ailəsindən, mənəvi cəhətdən uzaqlaşır, tərbiyəvi təsirlərə biganəlik və ya müqavimət göstərir, "deviant" davranış sabit xarakter almağa başlayır, ailə fərdləri arasında konfliktlər yaranır. Məlumdur ki, yeniyetməlik yaş dövrü böyüməkdə olan insan, ailəsi və sosial əhatəsi üçün sosial-psixoloji baxımdan ən mürəkkəb, təlatümlü, çətin dövr hesab edilir.

Bu yaş dövrlərində sinir-psixi pozğunluqlar sırasında "deviantlıq" və ya davranış pozğunluğu sindromu birinci yerdə durur. Bu cür davranış pozğunluqları onlarda adətən alkoqol və müxtəlif toksiki tərkibli maddələrdən istifadə etmələri ilə müşayət olunur. Bir sıra psixoloji ədəbiyyatlarda belə asılılığa səbəb olan davranış pozğunluğu "addiktiv davranış" adlandırılır. Müasir yeniyetmə və gənclərdə alkoqolizm və toksikomaniyanın ilkin diaqnostikasına, tibbi müəssisələrdə və məktəb psixoloji xidmət sistemi vasitəsilə müayinə və psixoprofilaktikası və psixokorreksiyasına ciddi ehtiyac vardır. Addiktiv davranışlı gənclərdə şəxsi avtonomiya ilə bağlı motivasiya üstünlük təşkil edir və real həyatda onların çoxunda passiv qiyam, az bir qismində emansipasiya reaksiyaları, bir qismində isə öz "mən"-ini müdafiə motivasiyası daha yüksək səviyyədə ifadə olunur. Məlumdur ki, ünsiyyət motivasiyası insan motivasiyalarının strukturunda ən vacib amillərdəndir. Ünsiyyət motivasiyasından bəhs edərkən qeyd etmək lazımdır ki, "daviant" davranışlı yeniyetmə və gənclərdə əks cinsə məhəbbətə, intim yaxınlığa cəhd etmənin səviyyəsi aşağı, neqativ cinsi meyllərin səviyyəsi isə yüksək olur. Bu da onlarda rol-cins davranışının pozulmasının nəticəsidir. Belə yeniyetmə və gənclərdə bəzən asosial, aqressiv və destruktiv hərəkətlər müşahidə olunur. Müxtəlif cinayət tərkibli əməllər məhz bu yaş dövrünə təsadüf edir. Baş vermiş hadisələrin əksəriyyəti toksiki psixotrop maddələrdən istifadə zamanı yaşanır. Onlar ifadələrində toksiki vasitələrdən bir daha istifadə etməyəcəklərini bildirirlər. Halbuki, belə motivasiya bu cür zərərli vərdişlərə düçar olmamış yeniyetmə və gənclər üçün xarakterik deyildir. Həddi-buluğa çatmamışlarda psixotrop maddələrdən istifadə tələbatının meydana gəlməsinin əsas amili yaş xüsusiyyətləri, əlverişsiz ailə münasibətləri, ali sinir fəaliyyətindəki pozğunluqlardır. Yaşlıların düşüncəli müdaxiləsi nəticəsində bəzi hallarda

sui istifadəni aradan qaldırmaq ya mümkün olur, ya da o kompensasiya oluna bilir, yəni medikamentoz peraparatlardan istifadə etmədən müalicə oluna bilir. Əgər yeniyetmənin həyati vacib sosial tələbatlarının təmin edilməsi üçün şərait yoxdursa, göstərilən frustrasiya amillərini aradan qaldırmaq cəhdləri əbəsdir. Heç bir dərman, cəza və ya hədə-qorxu onun qarşısını ala bilməz. Həddi-buluğa çatmamışların psixotrop vasitələrdən sui istifadəsinin aradan qaldırılması və profilaktikası sahəsində həyata keçirilən tədbirlərin az səmərəliliyi və çətinliyi onunla əlaqədardır ki, buna görə məsul olan yaşlılar bunu narkologiyanın problemi hesab edirlər. Öz-özlüyündə formalaşmaqda olan yeniyetmə şəxsiyyətinin yaş xüsusiyyətləri üçün bütün növ davranış pozğunluqlarının səbəbləri eynidir. Hüquq pozğunluğu, alkoqolizm, narkomaniya və toksikomaniya, affektiv və nevrotik pozğunluqlar, bütün bunların hamısı eyni zəncirin həlqələridir.

Həddi-buluğa çatmamışlarda alkoqolizm və narkomaniyanın profilaktikası və aradan qaldırılmasının rasional yolu nədən ibarətdir? Valideynlər və müəllimlər həddi-buluğa çatmışlarda alkoqolizm və narkomaniyanın qarşısının alınmasına nədən başlamalıdırlar? Bir çox mütəxəssislər belə hesab edirlər ki, bu sahədə işlərə uşaqların lap kiçik yaşlarından başlamaq lazımdır. Bu sahədə aparılacaq profilaktik işlərin əsas komponentlərinə şagird şəxsiyyətinin, onların psixi inkişaf xüsusiyyətlərinin öyrənilməsi; uşağın tərbiyə üslubunu müəyyənləşdirmək məqsədilə onların ailələrinin öyrənilməsi; yaşlıların spirtli içkilərdən müntəzəm istifadə etdikləri ailələrin aşkar edilməsi daxildir. Bu istiqamətdə müsbət nəticələrin əldə edilməsi üçün valideynlərlə fərdi və kollektiv iş formalarından istifadə etmək, şagirdin ailəsinə gedişlər, valideynlərlə söhbətlərin, mühazirələrin, məsləhətlərin, anket sorğularının tərbiyə təcrübəsi mübadiləsinə aid konfransların keçirilməsi, hüquqi və tibbi maarifləndirmə və s. kimi iş formalarından istifadə olunan bilər. Şagirdlər arasında maarifləndirici tədbirləri həm dərslərdə, həm də dərsdənkənar vaxtlarda keçirmək çox vacibdir. Müsbət nəticələr əldə etmək üçün keçirilən tədbirlərdə videoçarxlardan istifadə olunması narkoloq məktəb psixoloqu, həddi-buluğa çatmayanların işləri üzrə inspektor kimi mütəxəssislərin dəvət olunması məqsədəuyğundur. Davranış qüsurlu uşaqlarla işləyərkən hər şeydən əvvəl onların qayğıdan kənarda qalmasının səbəblərini aradan qaldırmağa, onları həmyaşıdlar qrupuna inteqrasiyasına diqqət yetirmək lazımdır. Addiktiv davranışlı yeniyetmə və gənclərlə psixokorreksiya tədbirlərinin işlənib hazırlanmasında alkoqol və toksiki maddələrə tələbatlara qarşı alternativ motivasiyanı yarada biləcək proqramlar işlənilməlidir.

Uşaq və yeniyetmələrdə müşahidə olunan müxtəlif davranış pozğunluqları mürəkkəb və çoxsəviyyəli prosesdir. Davranış pozğunluqları ciddi psixi və somatik xəstəliklərin həm səbəbi, həm də nəticəsi kimi özünü göstərə bilər. Uşaqlıq və yetkinlik dövründə yaşanan psixiatrik və psixoloji problemlərdə lazımlı vəziyyətlərdə uşaq-yeniyetmə psixoloq yardımı çox əhəmiyyətlidir. Yeniyetməni anlamanın, yeniyetmə valideyn əlaqəsinin sağlıqlı olması üçün önəmli faktordur. Amma yeniyetməlik dönəmində yaşananlar yeniyetmə üçün də kifayət qədər çətindir. Təəssüf ki, valideynlər üçün də çətindir. Ana-ata üçün də artıq bəzi şeylər dəyişilmişdir. Bundan sonra uşaqlarıyla əlaqələrində köhnə metodlar işə yaramayacaqdır və bir şeylərin dəyişmə zamanı gəlmişdir. Valideynlər yeniyetmələrin bu formalaşma dönəmini sağlam bir şəkildə qarşılamalı və fərqində olmadan da olsa onların böyüməsi, formalaşmasını əngəlləyəcək, onlara bağlı hala gətirəcək ya da mənəvi cəhətdən uzaqlaşmasına səbəb olacaq davranışlardan çəkinməlidirlər. Yeniyetmələrlə sağlam əlaqələr qurulmasına diqqət edilməlidir. Valideynlərə düşən vəzifə yeniyetmənin bu dövrünün və yaşadıqlarının keçici bir dönəm olmasını görmək və proseslərə soyuqqanlı yanaşmaqdır. Unutmaq olmaz ki, bu dövr keçicidir.

**Məqalənin aktuallığı.** Yeniyetmələrdə davranış qüsurları və yaş böhranların yaranmasın-

da, eləcə də ailədaxili münasibətlərdə onların təmsil etdiyi sosial qrupların böyük təsiri vardır. Bu kimi neqativ halların üzə çıxarılaraq aradan qaldırılmasında və ailədaxili münasibətlərin öyrənilməsində psixoloqların da üzərinə böyük məsuliyyət düşür. Məqalə də məhz bu kimi məsələlərə həsr olunduğundan onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə müasir yeniyetmə və gənclərin davranış pozğunluqlarında zərərli vərdişlərin təhlili verilir, bu kimi halların ilkin diaqnostikası, tibbi müəssisələrdə və məktəb psixoloji xidmət sistemi vasitəsilə müayinə, psixoprofilaktikası və psixokorreksiyasının vacibliyi elmi cəhətdən əsaslandırılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən praktik psixoloqlar, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı, 2004.
2. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2003.

**Н.Ш. Гасанли**

## Характеристика психологической работы, выполняемой психологом с подростками

### Резюме

В наше время подростки оказывают большое влияние на возникновение расстройств поведения и возрастных кризисов, а также на социальные группы, которые они представляют в семейных отношениях. Психологи несут большую ответственность за выявление и устранение таких негативных ситуаций, а также за изучение семейных отношений. В статье также обсуждаются такие вопросы, анализируется подростки и молодые люди с вредным поведением при поведенческих расстройствах, а также подчеркивается важность их диагностики, психопрофилактики и психокоррекции в медицинских учреждениях и школьных психосоциальных службах.

**N.Sh. Gasanli**

## Characteristics of psychological work carried out by a psychologist with adolescents

### Summary

In modern times, adolescents have a great influence on the emergence of behavioral disorders and age crises, as well as the social groups they represent in family relationships. Psychologists have a great responsibility to identify and address such negative situations and to study family relationships. The article also discusses such issues, analyzes adolescents and young people with harmful behaviors in behavioral disorders, and emphasizes the importance of their diagnosis, psychoprophylaxis and psychocorrection in medical institutions and school psychosocial services.

**Redaksiyaya daxil olub:** 10.12.2019